MahadSunnah

هيثم سرحان

أحكام اليمين

Andın əhkamları

Azərbaycan dili — اللغة الأذرية

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

“Andlarınızı qoruyun”

Andın lüğəti mənası and içməkdir.

Şərii mənası isə: Bir şeyi, xüsusi bir şəkildə əzəmətli birinin adını zikr edərək, təkid etməkdir.

Andın forması Uca Allahın adını zikr etməklə olur. Misal olaraq:

Vallahi, Allaha and olsun, Ər-Rahmənə and olsun.

Və ya Allahın sifətini zikr etməklə olur. Misal olaraq:

Allahın izzətinə və cəlalına and olsun.

Andda hikmət təkid etməkdir. O da:

- Ya xitab olunan şəxsin and içən şəxsin sözünə inanmasını təmin edir.
- Və ya insanın özündə bir şey etmək və ya etməmək əzmini gücləndirir.
- Yaxud xitab olunandan tələbini gücləndirmək və ya onu nəyəsə həvəsləndirmən və ya nəyinsə qarşısını almaq üçün istifadə olunur.

Çox and içmək isə bəyənilmir.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَلَا تُطِعۡ كُلَّ حَلَّافٖ مَّهِينٍ ١٠﴾ [القَلَم : ١٠]

“İtaət etmə hər tez-tez and içənə, alçağa.”[1]

Yəni haqqlı və haqqsız yerə çoxlu and içənə.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَٱحۡفَظُوٓاْ أَيۡمَٰنَكُمۡۚ﴾ [المَائِـدَة : ٨٩]

“Andlarınızı qoruyun!”[2]

Allahdan başqasına and içmək olmaz

Peyğəmbər ﷺ buyurub:

“Allah sizə atalarınıza and içməyi qadağan edib. Sizdən kim and içmək istəsə qoy Allaha and içsin yaoxsa sussun.”[3]

Andın bir neçə qisimləri var. Bunlar:

- Əvvəlki xəbərləri təsdiqləyən and.

Əgər reallıqla üst-üstə düşürsə, bu, doğru anddır.

[1] əl-Qaləm surəsi, 10-cu ayə
[2] əl-Maidə surəsi, 89-cu ayə
[3] Buxari və Muslim

Əgər haqqı batil göstərmək və ya batili haqq göstərmək üçün yalandan and içərsə, tövbə edib haqqları qaytarmayınca, bu, (günaha) batıran and sayılır. Çünki o, öz sahibini günaha batırır.

- Bunlardan biri də, Gələcəkdə bir iş yaratmaq üçün təkidlə edilmiş anddır

Bu, and içən şəxsi gələcəkdə özünü və ya başqalarını bir işi etməyəvə ya etməməyə məcbur etməkdir.

Sanki deyir: Allaha and olsun, mən mütləq filankəsin yanına gedəcəm, yaxud Allaha and olsun, filankəsin evinə girməyəcəyəm.

Bu andın şərtləri yerinə yetirildikdə "düyünlənmiş and" adlanır.

- Onların arasında qəti olmayan, əksinə, boş-boş deyilən bir and da var.

O da mənasını nəzərdə tutmadan tələffüz edilən anddır.

"Yox vallah", "hə vallah" kimi sözlər. Bunlar "düyünlənmiş and" sayılmır.

Peyğəmbər ﷺ buyurub:

"Kim and içərsə və başqa xeyirli bir məsələ ortaya çıxarsa, xeyirli olanı etsin və andının kəffarəsin versin."[4]

Andın kəffarəsi də yalnız "düyünlənmiş and"-da olur.

[4] Muslim 1650

Necə ki Uca Allah buyurur:

قال تعالى: ﴿لَا يُؤَاخِذُكُمُ ٱللَّهُ بِٱللَّغۡوِ فِيٓ أَيۡمَٰنِكُمۡ وَلَٰكِن يُؤَاخِذُكُم بِمَا عَقَّدتُّمُ ٱلۡأَيۡمَٰنَۖ فَكَفَّٰرَتُهُۥٓ إِطۡعَامُ عَشَرَةِ مَسَٰكِينَ مِنۡ أَوۡسَطِ مَا تُطۡعِمُونَ أَهۡلِيكُمۡ أَوۡ كِسۡوَتُهُمۡ أَوۡ تَحۡرِيرُ رَقَبَةٖۖ فَمَن لَّمۡ يَجِدۡ فَصِيَامُ ثَلَٰثَةِ أَيَّامٖۚ ذَٰلِكَ كَفَّٰرَةُ أَيۡمَٰنِكُمۡ إِذَا حَلَفۡتُمۡ﴾ [المَائِدَة : ٨٩]

“Allah sizi qəsdiniz olmadan içdiyiniz andlara görə (onları pozmağa görə) cəzalandırmaz, lakin O, sizi qəsdlə içdiyiniz andlara görə cəzalandıracaqdır. Bunun kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabı dəyərində ya on kasıbı yedirtmək və ya onları geyindirmək və yaxud da bir köləni azad etməkdir. (Kəffarə vermək üçün bir şey) tapmayan kimsə üç gün oruc tutsun. Bu, and içib sonra poz-duğunuz andlarınızın kəffarəsidir.” [5]

Kəramətli ayə açıqlayır ki, içilən andın kəffarəsi başlanğıcda ixtiyar və sonunda isə tərtibatı nəzərə alaraq vacibdir.

Əgər and içən şəxs andını pozarsa, üç əməldən biri arasında ixtiyar sahibidir:

1. Ya on nəfəri yedizdirmək
2. Ya on nəfəri geyindirmək
3. Ya da bir kölə azad etmək.

Üçünü də yerinə yetirə bilməsə, üç gün oruc tutmalıdır. Ardıcıl olması daha yaxşıdır.

[5] əl-Maidə surəsi, 89-cu ayə

Kim andında istisna edib desə ki, Allaha and olsun ki, Allah istəsə bunu edərəm və ya Allaha and olsun ki, Allah istəsə bunu etmərəm, bu kəffarə tələb etmir.

Peyğəmbər ﷺ buyurub:

“Kim and içdiyi zaman Allah istəsə deyərsə, o istisna gətirmiş olur. Andını pozsa belə ona kəffarə düşmür.”[6]

Sonda Uca Allaha həmd və sənalar olsun. Allahın salavatı və salamı Peyğəmbərinin üzərinə olsun.

[6] Abu Davud 3261